**Ədliyyə orqanlarında qulluq keçmə haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ədliyyə orqanlarında, idarələrində və təşkilatlarında, penitensiar xidmətdə qulluq keçmə (bundan sonra "ədliyyə orqanlarında qulluq keçmə" adlanacaq) qaydalarını və şərtlərini, bu orqanların işçilərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən edir.

I f ə s i l

## ÜMUMİ MÜDDƏALAR

### M a d d ə 1 . **Ədliyyə orqanlarında qulluq keçmə**

1.1. Ədliyyə orqanlarında qulluq Azərbaycan Respublikasının hüquq mühafizə orqanları sisteminə daxil olan ədliyyə orqanlarının qanunvericilikdə nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğunun xüsusi növüdür.

1.2. Ədliyyə orqanları işçilərinin qulluq keçməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş ədliyyə orqanlarının fəaliyyət prinsiplərinə əsaslanır. Ədliyyə orqanlarının işçiləri qulluq keçərkən qanunun tələblərini rəhbər tutaraq səlahiyyətləri hüdudlarında fəaliyyət göstərirlər.

### M a d d ə 2 . **Ədliyyə orqanlarında qulluq keçmənin hüquqi əsasları**

2.1. Ədliyyə orqanlarında qulluq keçmənin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, "İcra haqqında", "İcra məmurları haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Notariat haqqında" Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.[1]

2.2. Ədliyyə orqanlarında qulluğa qəbul *və qulluq keçmə* "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun vətəndaşların dövlət qulluğuna qəbul edilmək hüququna, qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları, *həmçinin həmin Qanunun 15-1-ci maddəsi* nəzərə alınmaqla, bu Qanun və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.[2]

### M a d d ə 3 . **Qanunun tətbiqi sahəsi**

3.1. Bu Qanun Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən və xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə çalışan

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının mərkəzi aparatları, müvafiq icra hakimiyyəti orqanının strukturuna daxil olan penitensiar xidmət, yerli, regional qurumları, tədris, elm və məhkəmə ekspertizası idarələri, tibb xidməti, mətbuat orqanları və digər təyinatlı qurumların işçilərinə şamil edilir.

3.2. Əmək münasibətlərinə dair bu Qanunda nəzərdə tutulmayan məsələlər, həmçinin xüsusi rütbələr nəzərdə tutulmayan vəzifələrdə işləyən şəxslərin qulluq keçməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir.

~~3.3. Ədliyyə orqanlarında işləyən şəxslərə bu Qanunla nəzərdə tutulmuş təminatlar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlardan az olduqda "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş təminatlar şamil edilir.~~ [3]

II fəsil

## ƏDLİYYƏ ORQANLARINA QULLUĞA QƏBUL, İŞÇİLƏRİN VƏZİFƏYƏ TƏYİN VƏ VƏZİFƏDƏN AZAD EDİLMƏSİ

### Maddə 4. **Ədliyyə orqanlarına qulluğa qəbulun şərtləri və qaydaları**

4.1. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, ~~dinə münasibətindən,~~ əqidəsindən, həmkarlar ittifaqlarına və ya digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşlarının ədliyyə orqanlarında qulluq etmək hüququ vardır.[4]

4.2. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə ədliyyə orqanlarında işləməyə qadir olmayan, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər ədliyyə orqanlarına qulluğa qəbul edilə bilməzlər.

4.3. Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə qulluğa qəbul edilmirlər.[5]

4.4. Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslər müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş formada ərizə ilə müraciət edirlər.

4.5 Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada yoxlanılır.

4.6. Ədliyyə orqanlarına qulluğa qəbul üçün müraciət etmiş şəxsin təqdim etdiyi sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsi həmin şəxsin qulluğa qəbul olunmaması və ya qulluq keçməsinə xitam verilməsi üçün əsasdır.

4.7. Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün müraciət etmiş və sənədləri qəbul edilmiş namizədlər aşkarlıq şəraitində şəffaflıq təmin edilməklə müsabiqə və ya müsahibədən keçirlər. Böyük (baş ədliyyə müşaviri, ədliyyə polkovniki və tibb xidməti polkovniki istisna olmaqla) və orta xüsusi rütbələr nəzərdə tutulan vəzifələrə şəxslər, bir qayda olaraq, müsabiqə əsasında qəbul edilirlər. Müsabiqə ixtisas imtahanından və söhbətdən ibarətdir. Hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış şəxslər ədliyyə orqanlarına inzibati vəzifəyə qulluğa müsabiqəsiz qəbul edilirlər. Ali hüquq təhsili tələb olunmayan böyük və orta xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə, həmçinin sıravi və kiçik rəis heyəti vəzifələrinə şəxslər müsahibə əsasında qəbul edilirlər. Müsabiqənin və müsahibənin keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İlk dəfə ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün müsabiqədən keçmiş namizədlər müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimə cəlb edilirlər. Bu təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər ədliyyə orqanlarına qulluğa qəbul edilirlər.[6]

4.8. Dövlət notariusu vəzifəsinə, tədris və məhkəmə ekspertizası idarələrinə qəbul qaydaları müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

4.9. Ədliyyə orqanlarına qulluğa qəbul müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyət verdiyi vəzifəli şəxslərin əmrləri ilə rəsmiləşdirilir və əmrin surəti imza etdirilməklə həmin gün işçiyə verilir.

4.10. Penitensiar xidmətə qulluğa qəbulun xüsusiyyətləri bu Qanunun 34-cü maddəsi ilə müəyyən edilir.

M a d d ə 5 . **Ədliyyə işçisinin andı**

5.1. İlk dəfə ədliyyə orqanlarında işə qəbul olunmuş ədliyyə işçisi işə başlamamışdan əvvəl Azərbaycan Respublikasının dövlət bayrağı önündə aşağıdakı məzmunda and içir: "Mən, ədliyyə orqanlarında qulluq keçərkən Azərbaycan Respublikasına sadiq olacağıma, Azərbaycan Respublikasının Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, hüquq və vəzifələrimi qərəzsiz, vicdanla, qanuna tam uyğun həyata keçirəcəyimə, ədliyyə işçisinin şərəf və ləyaqətini uca tutacağıma and içirəm".

5.2. Andı içən ədliyyə işçisi andın mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır.

M a d d ə 6 . **Ədliyyə orqanlarında stajorluq və sınaq keçmə**

6.1. İlk dəfə ədliyyə orqanlarına qəbul edilən şəxslər üçün, bir qayda olaraq, *altı aylıq* stajorluq müddəti müəyyən edilir. Stajorluq müddəti bitdikdən sonra stajor barəsində müsbət rəy olduğu halda onun *üç* aylıq sınaq müddəti ilə vəzifəyə təyin edilməsi məsələsi həll olunur.[7]

6.2. Sınaq müddəti başa çatdıqdan sonra attestasiyadan müvəffəqiyyətlə keçmiş işçi müvafiq vəzifəyə təyin olunmaqla ədliyyə orqanlarında daimi qulluğa qəbul edilir.

6.3. Stajorluq və sınaq müddətləri ədliyyə orqanına işə qəbula dair əmrdə göstərilir.

6.4. Stajorluq müddəti bitdikdən sonra stajor barəsində müsbət rəy olmadıqda o, sınaq müddəti ilə vəzifəyə təyin edilmir, sınaq müddətlərində attestasiyadan keçməmiş işçi isə daimi qulluğa qəbul edilmir.

6.5. Ədliyyə orqanlarında qulluğa qəbul zamanı rəhbər vəzifəyə təyin olunan, fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi (bundan sonra - elmi dərəcəsi) olan, hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış şəxslər üçün habelə qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda stajorluq və sınaq müddəti müəyyən edilmir. [8]

6.6. Stajorluq və sınaq müddətləri ədliyyə orqanlarında iş stajına hesablanır, qulluq illərinə görə əlavələr və pensiya təyin olunarkən nəzərə alınır.

6.7. Stajorluq və sınaq müddətində işçilər yalnız vəzifə maaşı alırlar.

6.8. Ədliyyə orqanlarında stajorluq və sınaq keçmə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə 7 . **Ədliyyə orqanları işçisinin şəxsi işi**

7.1. Ədliyyə orqanları işçisinin şəxsi işində onun ədliyyə orqanlarında qulluq keçməsi haqqında məlumatlar, şəxsi və iş keyfiyyətlərini əks etdirən sənədlər saxlanılır.

7.2. Ədliyyə orqanları işçisinin şəxsi işi ədliyyə orqanlarının kadr xidməti tərəfindən aparılır. Şəxsi işin aparılması və saxlanılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

M a d d ə 8 . **Ədliyyə orqanları işçisinin xidməti vəsiqəsi**

8.1. Vəzifəyə təyin olunmuş ədliyyə orqanlarının işçisinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada, formada və etibarlıq müddətinə xidməti vəsiqə verilir. Ədliyyə orqanları işçisinin xidməti vəsiqəsi onun şəxsiyyətini, xüsusi rütbəsini və tutduğu vəzifəni təsdiq edir. Xidməti vəsiqə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada hazırlanır və qeydiyyat kitabında imza etdirilməklə işçiyə təqdim edilir.

8.2. İşçi ədliyyə orqanlarında qulluq etdiyi dövr ərzində xidməti vəsiqədən istifadə edir. Ədliyyə orqanları işçisinin soyadı, vəzifəsi və ya xüsusi rütbəsi dəyişdikdə, habelə xidməti vəsiqənin etibarlıq müddəti qurtardıqda ona yeni xidməti vəsiqə verilir.

8.3. Ədliyyə orqanları işçisinin qulluğuna xitam verildikdə xidməti vəsiqə onu təqdim edən orqana qaytarılır.

## III fəsil

## ƏDLİYYƏ ORQANLARINDA QULLUQ KEÇMƏNİN ŞƏRTLƏRİ

M a d d ə 9 . **Ədliyyə orqanları işçilərinin əsas hüquqları**

9.0. Ədliyyə orqanları işçiləri aşağıdakı əsas hüquqlara malikdirlər:

9.0.1. vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada zəruri informasiya və materiallar tələb etmək və almaq;

9.0.2. ədliyyə orqanlarına işə götürmək və işdən azad etmək hüququna malik olan vəzifəli şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsi və onların icrası üçün şərait yaradılması barədə müraciət etmək;

9.0.3. əməkhaqqı almaq;

9.0.4. əlavə təhsili və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya əməkhaqqı məbləğinin artırılması iddiasında olmaq; [9]

9.0.5. elmi və yaradıcılıq fəaliyyəti ilə, habelə işlədiyi ədliyyə orqanı rəhbərinin icazəsi ilə pedaqoji fəaliyyətlə məşğul olmaq;

9.0.6. əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək;

9.0.7. öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə əlavə edilməsini tələb etmək;

9.0.8. müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək;

9.0.9. həmkarlar ittifaqlarında birləşmək;

9.0.10. işlədiyi ədliyyə orqanının rəhbərindən aldığı icrası məcburi olan göstəriş və ya tapşırığın qanuniliyi işçidə şübhə doğurursa, həmin göstərişin və ya tapşırığın ona yazılı şəkildə verilməsi barədə müraciət etmək;

9.0.11. qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, ədliyyə orqanları işçilərinin funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərin üzvü olmaq;

9.0.12. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq;

9.0.13. qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər, özünün əlilliyi ilə əlaqədar pensiyalar və müavinətlər almaq.

M a d d ə 1 0 . **Ədliyyə orqanları işçilərinin əsas vəzifələri**

10.0. Ədliyyə orqanları işçiləri vəzifədə olaraq aşağıdakıları etməlidirlər:

10.0.1. qanunvericiliyi və müvafiq icra hakimiyyəti orqanının qəbul etdiyi normativ hüquqi aktları həyata keçirməli;

10.0.2. rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli;

10.0.3. başqa ədliyyə işçilərinin işini çətinləşdirən, yaxud ədliyyə orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli;

10.0.4. vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli;

10.0.5. lazım gəldikdə, öz ixtisası hüdudunda ədliyyə orqanının rəhbərinin göstərişi ilə əlavə iş görməli;

10.0.6. dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən işdən çıxdıqdan və ya pensiyaya getdikdən sonra da saxlamalı;

10.0.7. vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və vətəndaşların şəxsi və ailə həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməməli;

10.0.8. qulluq etdiyi ədliyyə orqanının rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə xarakterli məlumatları təqdim etməli;

10.0.9. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə keçməli, başqa yerdə işləməli və ya başqa vəzifələri icra etməli;

10.0.10. qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçməli;

10.0.11. etik davranış və intizam qaydalarına əməl etməlidirlər. [10]

M a d d ə 1 1 . **Ədliyyə orqanlarında qulluqla bir araya sığmayan fəaliyyət**

11.1. Ədliyyə orqanlarının işçisi heç bir seçkili və ya digər təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz.

11.2. Ədliyyə orqanları işçisinin aşağıdakılara ixtiyarı yoxdur:

11.2.1. “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmalar törətməyə;

11.2.2. qanunvericiliklə müəyyən edilmiş hallardan başqa, dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;

11.2.3. işdən və ya pensiyaya çıxdıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;

11.2.4. işlədiyi ədliyyə orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına xaricə getməyə;

11.2.5. tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə;

11.2.6. dini təbliğ etmək üçün ədliyyə işçisinin statusundan istifadə etməyə və ədliyyə orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

M a d d ə 1 2 . **İş vaxtı və istirahət vaxtı**

12.1. Ədliyyə orqanları işçilərinə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş iş və istirahət vaxtı şamil edilir.

12.2. Zəruri hallarda ədliyyə orqanları işçiləri iş vaxtından sonra, istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günündə qulluq vəzifələrinin yerinə yetirilməsinə cəlb edilə bilərlər. Bu halda onlara qanunvericiliklə müəyyən edilmiş qaydada ödənc və ya istirahət vaxtı verilir. [11]

12.3. İş günü ərzində ədliyyə orqanları işçilərinə istirahət və nahar etmək üçün fasilə verilir.

M a d d ə 1 3 . **Ədliyyə orqanları işçilərinin məzuniyyəti**

13.1. Ədliyyə orqanlarının işçiləri Azərbaycan Respublikasının əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada məzuniyyətlərdən istifadə edirlər.

13.2. Penitensiar xidmətdə məzuniyyətlərdən istifadə edilməsinin xüsusiyyətləri bu Qanunun 36-cı maddəsi ilə müəyyən edilir.

M a d d ə 1 4 . **Ədliyyə orqanları işçisinin vəzifədə irəli çəkilməsi və başqa vəzifəyə keçirilməsi**

14.1. Ədliyyə orqanlarının işçisi vəzifədə irəli çəkilə və başqa vəzifəyə keçirilə bilər.

14.2. Ədliyyə orqanları işçisinin vəzifədə irəli çəkilməsinə, başqa vəzifəyə keçirilməsinə onun razılığı ilə yol verilir. Ədliyyə orqanlarının işçisi vəzifədə irəli çəkilərkən onun təhsili, işgüzarlığı, peşəkarlıq səviyyəsi, əməyinin nəticələri, şəxsi keyfiyyətləri, bərabər vəzifəyə dəyişdirilərkən ailə vəziyyəti, səhhəti, yaşı, yaşayış yeri və digər hallar nəzərə alınır.

14.3. Səhhətinə görə (tibbi-həkim komissiyasının rəyinə əsasən) və ya ştatların ixtisarı nəticəsində bərabər vəzifəyə keçirilməsi mümkün olmadıqda, habelə intizam tənbehi qaydasında və ya attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun gəlmədiyi müəyyən edildikdə ədliyyə orqanları işçisinin aşağı vəzifəyə keçirilməsinə onun razılığı tələb olunmur.

14.4. Aşağı vəzifəyə keçirilmiş ədliyyə orqanlarının işçisi sonradan xüsusi rütbəsi, peşəkarlığı, vəzifələrin layiqincə yerinə yetirilməsi və şəxsi keyfiyyətləri nəzərə alınmaqla yuxarı vəzifəyə təyin oluna bilər. Ədliyyə orqanları işçisinin bir vəzifədən başqa vəzifəyə keçirilməsi bütün hallarda əsasları göstərilməklə müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyət verdiyi vəzifəli şəxslərin əmrləri ilə rəsmiləşdirilir və işçiyə elan edilir.

~~14.5. 15 il və daha çox qulluq illəri olan ədliyyə orqanlarının işçisi ştatların ixtisarı və səhhətinə görə az maaşlı vəzifəyə keçirilərkən onun əvvəlki vəzifə maaşı keçirilən vəzifə üzrə saxlanılır.~~ [12]

14.6. Ədliyyə orqanlarının işçisi dövlət orqanlarında hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, qanunvericilik və ya təşkilati təminatı ilə bağlı vəzifələrə keçdikdə, ədliyyə orqanlarının kadr ehtiyatında saxlanıla bilər.

M a d d ə 1 5 . **Ədliyyə orqanları işçisinin sərəncamda olması və vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması**

15.1. Ədliyyə orqanlarının işçisi ştatların ixtisarına görə, intizam tənbehi qaydasında, attestasiyanın nəticələrinə görə vəzifədən azad edildikdə üç ayadək müddətdə sərəncamda ola bilər. Bu müddətə ədliyyə orqanları işçisinin məzuniyyətdə olduğu dövr daxil deyil. Müstəsna hallarda bu müddət müvafiq icra hakimiyyəti orqanı tərəfindən altı ayadək uzadıla bilər.

Ədliyyə orqanları işçisinin sərəncamda olduğu müddətdə onun əvvəlki vəzifədə aldığı aylıq əməkhaqqı üç ay müddətində saxlanılır.

15.2. Ədliyyə orqanlarının işçisi cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb olunduqda vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılır və həmin andan səlahiyyətlərinin icrasına buraxılmır.

15.3. Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış ədliyyə orqanlarının işçisi barəsində bəraət hökmü çıxarıldıqda və ya cinayət təqibinə bəraətverici əsaslarla xitam verildikdə, o, yenidən vəzifələrinin icrasına buraxılır.

15.4. Cinayət təqibini istisna edən digər hallarda, habelə barəsində məhkəmənin ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi halda ədliyyə orqanları işçisinin qulluq keçməsinə xitam verilir.

15.5. Ədliyyə orqanlarının işçisi bu Qanunun 31.1-ci maddəsində göstərilən əməlləri törədib-törətməməsi məsələsinin araşdırılması məqsədilə iki ay müddətinədək vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıla bilər. Belə kənarlaşdırma yalnız ədliyyə orqanlarının işçisinin öz vəzifə səlahiyyətlərinin icrasını davam etdirməsinin aparılan xidməti yoxlamaya maneçilik törədə biləcəyi hallarda həyata keçirilir. Xidməti yoxlamanın nəticəsindən asılı olaraq ən geci iki ay müddətində işçi barəsində vəzifə səlahiyyətlərinin icrasına buraxılmasına davam etdirilməsinə, yaxud intizam tənbehi tədbirinin tətbiq edilməsinə dair qərarlardan biri qəbul edilir.

15.6. Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıldığı müddət ərzində işçiyə tam həcmdə əməkhaqqı ödənilir.

M a d d ə 1 6 . **Ədliyyə orqanları işçilərinin peşə hazırlığı və əlavə təhsili** [13]

16.1. Ədliyyə orqanlarını ixtisaslı kadrlarla təmin etmək, işçilərin nəzəri və peşə hazırlığını artırmaq məqsədilə ədliyyə orqanlarının təhsil müəssisələrindən, ixtisasartırma kurslarından, məşğələlərdən, seminarlardan, konfranslardan, xarici

dövlətlərin və beynəlxalq təşkilatların müvafiq təhsil sistemindən və digər tədbirlərdən istifadə olunur. [14]

16.2. Ədliyyə orqanları işçisinin öz ixtisasını artırması onun qulluq borcu, işçilərin nəzəri biliklərinin və peşə hazırlığının artırılması üçün tədbirlər görülməsi rəhbər işçilərin qulluq vəzifəsidir. İşçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, mükafatlandırılması və vəzifədə irəli çəkilməsi məsələlərinin həlli zamanı onun təhsilə münasibəti, nəzəri və peşə hazırlığı nəzərə alınır.

16.3. Ədliyyə orqanları işçisinin əlavə təhsil aldığı müddət ədliyyə orqanlarında iş stajına hesablanır, qulluq illərinə görə əlavələr və pensiya təyin olunarkən nəzərə alınır.[15]

M a d d ə 1 7 . **Ədliyyə orqanları işçilərinin attestasiyası və fəaliyyətinin qiymətləndirilməsi**[16]

17.1. Ədliyyə orqanlarında işçilərin tutduqları vəzifələrə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi, onların potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, peşə səriştəliliyinin artırılmasının stimullaşdırılması, ixtisaslarının və peşə hazırlıqlarının yüksəldilməsi və ya təkrar hazırlıq keçmələrinin zərurət dərəcələrinin müəyyənləşdirilməsi, habelə kadrların irəli çəkilməsi proqramının həyata keçirilməsi məqsədilə attestasiya keçirilir.

Ədliyyə orqanları işçilərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Ədliyyə orqanları işçilərinin fəaliyyətinin qiymətləndirilməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.[17]

*17.1-1. Yalnız müvafiq vəzifələrdə azı bir il çalışan ədliyyə orqanları işçilərinin attestasiyası keçirilə bilər. Hər bir ədliyyə orqanı işçisinin attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir.*[18]

17.2. Ədliyyə orqanları işçilərinin attestasiyası *müvafiq icra hakimiyyəti orqanı tərəfindən* müəyyən edilmiş qaydada keçirilir.[19]

M a d d ə 1 8 . **Ədliyyə orqanlarında qulluq keçmənin yaş həddi**

18.1. Ədliyyə orqanları işçisinin ədliyyə orqanlarında qulluqda olmasının yaş həddi 60 yaşdır.

18.2. Ədliyyə orqanlarında qulluq keçən qadınlar öz arzuları ilə bu Qanunun 18.1-ci maddəsində nəzərdə tutulan yaş həddindən 5 il az olmaqla xidmət edə bilərlər.

18.3. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifələrə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir. Yaş həddinə çatmış ədliyyə orqanlarının digər işçilərinin qulluqda olma müddəti müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən uzadıla bilər. Ədliyyə orqanlarında qulluqda olma müddəti hər dəfə bir ildən çox olmayaraq uzadıla bilər. 65 yaşına çatmış işçilərin ədliyyə orqanlarında qulluqda olma müddətinin uzadılmasına yol verilmir.

18.4. Penitensiar xidmətdə qulluqda olmanın yaş həddi bu Qanunun 38-ci maddəsi ilə müəyyən edilir.

18.5. Ədliyyə orqanlarında qulluq keçmiş şəxslər məhkəmə, prokurorluq, digər hüquq mühafizə, o cümlədən fövqəladə hallar orqanlarına və ya hərbi orqanlara işə qəbul edilərkən onların ədliyyə orqanlarındakı qulluq illəri həmin orqanlarda qulluq illərinə daxil edilir və daşıdıqları xüsusi rütbələr saxlanılır. Həmin orqanlarda, habelə hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, qanunvericilik və ya təşkilati təminatı ilə bağlı vəzifələrdə işləmiş ədliyyə orqanlarına qulluğa qəbul edilmiş şəxslərin qulluq illəri ədliyyə orqanlarında qulluq illərinə daxil edilir.[20]

M a d d ə 1 9 . **Ədliyyə orqanlarında qulluq keçmə ilə bağlı digər məsələlər**

19.1. Ədliyyə orqanlarının işçisi qulluq keçmə ilə bağlı qərarla razı olmadıqda müvafiq yuxarı orqana və ya məhkəməyə şikayətlə müraciət edə bilər.

19.2. Yuxarı orqan qanunla müəyyən olunmuş qaydada və müddətdə şikayətə baxmalı və qəbul olunmuş qərar haqqında işçiyə yazılı məlumat verməlidir.

19.3. *Bu Qanunun 19.4-cü maddəsinə əsasən intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, verilmiş şikayət* intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasını dayandırmır. [21]

*19.4. Şikayət verildiyi hallarda, barəsində şikayət olunan intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.* [22]

## I V f ə s i l

## ƏDLİYYƏ ORQANLARI İŞÇİLƏRİNİN XÜSUSİ RÜTBƏLƏRİ

M a d d ə 2 0 . **Xüsusi rütbələr**

20.1. Tutduqları vəzifəyə və ədliyyə orqanlarında stajına uyğun olaraq ədliyyə orqanlarının işçiləri üçün aşağıda göstərilən xüsusi rütbələr müəyyən edilir:

20.1.1. Ali xüsusi rütbələr:
- həqiqi dövlət ədliyyə müşaviri;
- I dərəcəli dövlət ədliyyə müşaviri;
- II dərəcəli dövlət ədliyyə müşaviri;
- III dərəcəli dövlət ədliyyə müşaviri.

20.1.2. Böyük xüsusi rütbələr:
- baş ədliyyə müşaviri;
- ədliyyə müşaviri;
- kiçik ədliyyə müşaviri.

20.1.3. Orta xüsusi rütbələr:
- I dərəcəli ədliyyə qulluqçusu;
- II dərəcəli ədliyyə qulluqçusu;
- III dərəcəli ədliyyə qulluqçusu.

20.2. Penitensiar xidmətin və tibb xidmətinin əməkdaşları üçün aşağıda göstərilən xüsusi rütbələr müəyyən edilir:

20.2.1. Ali rəis heyəti vəzifələri üçün müəyyən edilmiş ali xüsusi rütbələr:

- ədliyyə general-polkovniki;
- ədliyyə general-leytenantı;
- ədliyyə general-mayoru; tibb xidməti general-mayoru.

20.2.2. Böyük rəis heyəti vəzifələri üçün müəyyən edilmiş böyük xüsusi rütbələr:

- ədliyyə polkovniki; tibb xidməti polkovniki;
- ədliyyə polkovnik-leytenantı; tibb xidməti polkovnik-leytenantı;
- ədliyyə mayoru; tibb xidməti mayoru.

20.2.3. Orta rəis heyəti vəzifələri üçün müəyyən edilmiş orta xüsusi rütbələr:

- ədliyyə kapitanı; tibb xidməti kapitanı;
- ədliyyə baş leytenantı; tibb xidməti baş leytenantı;
- ədliyyə leytenantı; tibb xidməti leytenantı;
- ədliyyə kiçik leytenantı; tibb xidməti kiçik leytenantı.

20.2.4. Kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələr:

- ədliyyə baş giziri; tibb xidməti baş giziri;
- ədliyyə giziri; tibb xidməti giziri;
- ədliyyə kiçik giziri; tibb xidməti kiçik giziri;
- ədliyyə baş çavuşu; tibb xidməti baş çavuşu;
- ədliyyə çavuşu; tibb xidməti çavuşu;
- ədliyyə kiçik çavuşu; tibb xidməti kiçik çavuşu.

20.2.5. Sıravi heyət vəzifələri üçün ədliyyə sıravisi və tibb xidməti sıravisi xüsusi rütbələri müəyyən edilir.

20.3. Ədliyyə orqanlarının işçilərinin xüsusi rütbələri müvafiq icra hakimiyyəti orqanları və prokurorluq işçilərinə verilən xüsusi rütbələrə, penitensiar və tibb xidmətlərin sıravi və rəis heyətinin xüsusi rütbələri Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi rütbələrinə bərabər tutulur.

M a d d ə 2 1 . **Xüsusi rütbələrin verilməsi qaydası**

21.1. Xüsusi rütbələr fərdi qaydada, təhsili, olduqları xüsusi rütbədə qulluq müddəti və əmək stajı, tutduqları vəzifədə xüsusi rütbə hədləri, həmçinin bu Qanunla nəzərdə tutulan digər şərtlər nəzərə alınmaqla verilir. Bu Qanunun 21.14-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, xüsusi rütbələr ardıcıl qaydada verilir.

21.2. Ali, böyük və orta xüsusi rütbələr, bir qayda olaraq, ali hüquq təhsili olan işçilərə verilir. Qanunla nəzərdə tutulmuş hallarda digər ali təhsili olan ədliyyə işçilərinə həmin xüsusi rütbələr tutduqları vəzifəyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində hüquqi biliklərə yiyələndikdən sonra verilir. Sıravi və kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş ilk xüsusi rütbələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş proqram üzrə xüsusi kursları, eləcə də m orta və ya orta ixtisas təhsil müəssisələrini bitirmiş sıravi və kiçik rəis heyəti vəzifələrinə təyin edilən şəxslərə verilir.[23]

21.3. Hər bir xüsusi rütbədə olmaq üçün aşağıdakı müddətlər müəyyən olunur:

21.3.1. ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı - 5 il;

21.3.2. kiçik ədliyyə müşaviri, ədliyyə mayoru, tibb xidməti mayoru-4 il;

21.3.3. I dərəcəli ədliyyə qulluqçusu, ədliyyə kapitanı, tibb xidməti kapitanı - 3 il;

21.3.4. II dərəcəli ədliyyə qulluqçusu, ədliyyə baş leytenantı, tibb xidməti baş leytenantı - 3 il;

21.3.5. III dərəcəli ədliyyə qulluqçusu, ədliyyə leytenantı, tibb xidməti leytenantı - 2 il;

21.3.6. ədliyyə kiçik leytenantı, tibb xidməti kiçik leytenantı - 1 il;

21.3.7. ədliyyə giziri, tibb xidməti giziri - 3 il;

21.3.8. ədliyyə kiçik giziri, tibb xidməti kiçik giziri -3 il;

21.3.9. ədliyyə baş çavuşu, tibb xidməti baş çavuşu - 3 il;

21.3.10. ədliyyə çavuşu, tibb xidməti çavuşu - 2 il;

21.3.11. ədliyyə kiçik çavuşu, tibb xidməti kiçik çavuşu - 1 il.

21.4. Ali xüsusi rütbələrdə, habelə baş ədliyyə müşaviri, ədliyyə polkovniki, tibb xidməti polkovniki, ədliyyə baş giziri, tibb xidməti baş giziri, ədliyyə sıravisi və tibb xidməti sıravisi xüsusi rütbəsində olma müddəti müəyyən edilmir.

21.5. Ali xüsusi rütbələr Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndinə uyğun olaraq verilir. Ədliyyə orqanlarının müvafiq vəzifələrinin və bu vəzifələrə uyğun ali xüsusi rütbələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

21.6. Digər xüsusi rütbələr müvafiq icra hakimiyyəti orqanı rəhbərinin təsdiq etdiyi vəzifələrin və bu vəzifələrə uyğun xüsusi rütbələrin siyahısına uyğun olaraq ədliyyə işçilərinə verilir.

21.7. Böyük və orta xüsusi rütbələr müvafiq təqdimatlar əsasında aşağıdakı vəzifəli şəxslər tərəfindən verilir:

21.7.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı və tabeliyində olan orqanlarının işçilərinə - Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyətlər verdiyi vəzifəli şəxslər tərəfindən;

21.7.2. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən ədliyyə orqanlarının işçilərinə - Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən. Bu halda baş ədliyyə müşaviri, ədliyyə polkovniki, tibb xidməti polkovniki, ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı və tibb xidməti polkovnik-leytenantı xüsusi rütbələrin verilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbəri ilə razılaşdırılır.

21.8. Sıravi və kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələr Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbərləri və ya onların müvafiq səlahiyyətlər verdiyi vəzifəli şəxslər tərəfindən verilir.

21.9. Xüsusi rütbələr verilməsinə dair təqdimatın forması müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən müəyyən olunur.

21.10. İlk orta və böyük xüsusi rütbə ilk dəfə ədliyyə orqanlarına daimi qulluğa qəbul edilənlərə verilir. İlk orta və böyük xüsusi rütbələri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbəri verir.

21.11. Növbəti xüsusi rütbə bu Qanunun 21.3-cü maddəsində nəzərdə tutulmuş müddətlər nəzərə alınmaqla verilir.

21.12. İşçiyə növbəti xüsusi rütbə verilərkən aşağıdakılar nəzərə alınır:

21.12.1. tutduğu vəzifə;

21.12.2. xidməti xasiyyətnamə.

21.13. Məhkəmə, prokurorluq, hüquq mühafizə, o cümlədən fövqəladə hallar, hərbi və digər dövlət orqanlarından ədliyyə orqanlarına işə keçmiş işçilərə xüsusi rütbə onların vəzifələri, əvvəlki xüsusi, hərbi rütbəsi nəzərə alınmaqla bu Qanuna əsasən verilir.[24]

21.14. Xüsusi rütbə vermə hüququ olan səlahiyyətli şəxslər vəzifələrini nümunəvi icra etdiyinə və işindəki nailiyyətlərə görə işçilərə mükafatlandırma qaydasında bu Qanunun 21.3-cü maddəsində nəzərdə tutulmuş müddətdən əvvəl növbəti və ya işçinin daşıdığı xüsusi rütbədən bir pillə yuxarı növbədənkənar xüsusi rütbə verə bilərlər.

21.15. Ədliyyə işçisinə vaxtından əvvəl xüsusi rütbə onun daşıdığı xüsusi rütbədə olma müddətinin ən azı yarısı keçdikdən sonra verilə bilər. Vaxtından əvvəl və növbədənkənar xüsusi rütbənin verilməsinə işçinin ədliyyə orqanlarında qulluq etdiyi müddətdə yalnız iki dəfə yol verilə bilər.

21.16. Vəzifədə irəli çəkilərkən ədliyyə işçisinə növbəyə riayət edilmədən daşıdığı xüsusi rütbədən bir pillə yuxarı xüsusi rütbə verilə bilər.

21.17. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyatında olan vətəndaşlar penitensiar xidmətdə vəzifələrə təyin olunduqdan sonra onlara mövcud hərbi rütbələrinə uyğun müvafiq xüsusi rütbələr verilir.

21.18. Ehtiyatda olan zabitlər penitensiar xidmətdə vəzifələrə təyin olunduqda ilk xüsusi rütbə onlara hərbi rütbələri üçün müəyyən edilən müddət başa çatdığı təqdirdə bir pillə yüksək verilə bilər.

21.19. Elmi dərəcəsi olan ədliyyə orqanları işçilərinə vəzifələri üzrə nəzərdə tutulan xüsusi rütbədən bir pillə yuxarı xüsusi rütbə verilə bilər.

21.20. Sıravi və kiçik rəis heyəti vəzifələrində olan ədliyyə orqanlarının işçiləri orta və böyük rəis heyəti vəzifələrinə təyin olunduqda, onlara mövcud xüsusi rütbədə qulluq müddətindən asılı olmayaraq həmin rəis heyətinin ilk xüsusi rütbəsi verilir. İlk kiçik xüsusi rütbəni Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxs verir.

21.21. Ədliyyə orqanlarının sərəncamında olan, yaxud intizam tənbehi verilmiş, həmçinin barələrində cinayət işi başlanmış və ya xidməti yoxlama keçirilən işçilər vəzifəyə təyin olunana, intizam tənbehi götürülənə, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verilənə və ya məhkəmənin hökmü ilə bəraət alanadək, yaxud xidməti yoxlama qurtaranadək növbəti xüsusi rütbələrə təqdim edilmirlər.

21.22. Xüsusi rütbədə qulluq müddəti həmin xüsusi rütbənin verilməsi haqqında əmrin imzalandığı gündən hesablanır.

21.23. Ədliyyə orqanları işçilərinə növbəti xüsusi rütbənin verilməsi əsassız gecikdirildikdə onun növbəti xüsusi rütbə alması üçün qulluq müddəti əvvəlki xüsusi rütbədə qulluq müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.

21.24. Ədliyyə orqanları işçilərinin intizam tənbehi qaydasında aşağı salınmış xüsusi rütbədə qulluq müddəti bərpa olunmuş xüsusi rütbədə olma müddətinə daxil edilmir.

21.25. Xüsusi rütbə işçiyə ömürlük verilir və yalnız qanunla müəyyən edilmiş qaydada o, xüsusi rütbədən məhrum oluna bilər.

21.26. Xüsusi rütbədən asılı olaraq ədliyyə orqanları işçilərinin vəzifə maaşlarına müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş miqdarda əlavə haqq ödənilir.

21.27. İxtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq məhkəmə ekspertizası idarəsinin ekspertlərinə həmçinin müəyyən olunmuş qaydada ekspert ixtisas dərəcəsi verilir.

## V f ə s i l

## ƏDLİYYƏ ORQANLARI İŞÇİLƏRİNİN HÜQUQİ VƏ SOSİAL MÜDAFİƏSİ VƏ MADDİ TƏMİNATI

### M a d d ə 2 2 . **Ədliyyə orqanları işçilərinin hüquqi müdafiəsi**

22.1. Ədliyyə orqanlarının işçisi bu Qanunda nəzərdə tutulmuş hallardan başqa, vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıla, ədliyyə orqanlarından xaric edilə bilməz və onun qulluq keçməsinə xitam verilə bilməz. Qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, ədliyyə orqanları işçisinin qanuni fəaliyyətinə məhdudiyyət qoyulması, təsir və müdaxilə edilməsi yolverilməzdir.

22.2. Penitensiar xidmətin əməkdaşları və onların ailə üzvləri barədə məlumatların məxfiliyinin qorunması üçün müvafiq icra hakimiyyəti orqanının qərarı ilə rabitə sorğu xidmətinə və ya digər məlumat-sorğu xidmətlərinə bu şəxslərin telefon nömrələri, yaşayış yeri barəsində və ya hər hansı digər məlumatların verilməsi müvəqqəti və ya daimi olaraq qadağan edilə bilər.

22.3. Penitensiar xidmətin əməkdaşlarının xidmət keçməsi haqqında məlumatlar yalnız penitensiar orqanın rəhbərinin icazəsi ilə verilə bilər.

### M a d d ə 2 3 . **Ədliyyə orqanları işçilərinin sosial müdafiəsi**

23.1. Ədliyyə orqanları işçilərinin həyatı və sağlamlığı dövlət büdcəsi vəsaiti hesabına "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi sığorta edilir.

23.2. Ədliyyə orqanlarının işçiləri (pensiyaya çıxmış işçilər də daxil olmaqla) və onların ailə üzvləri pulsuz dövlət tibb xidməti ilə təmin olunurlar.

Ədliyyə orqanları işçilərinin müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə onlara iki aylıq əməkhaqqı həcmində birdəfəlik müavinət verilir.

23.3. Ədliyyə orqanlarının işçiləri hər il məzuniyyətə çıxarkən onlara iki aylıq əməkhaqqı həcmində müavinət ödənilir.

23.4. Mənzil növbəsinə dayanmış ədliyyə orqanlarının işçisi xidməti fəaliyyət zamanı vəfat etdikdə onun ailəsinin mənzil almaq hüququ saxlanılır.

23.5. Xidməti vəzifələrinin icrası ilə əlaqədar həlak olmuş (vəfat etmiş) və ya qulluğun davam etdirilməsinə imkan verməyən xəstəliyə tutulmuş, xəsarət (yaralanma, travma, kontuziya) almış və əmlakına zərər vurulmuş ədliyyə orqanlarının işçilərinə və ya onların ailə üzvlərinə birdəfəlik müavinətin verilməsi və maddi zərərin ödənilməsi "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. [25]

23.6. Başqa yerə daimi işə keçirilmiş ədliyyə orqanı işçisinin və onun ailə üzvlərinin yeni qulluq keçmə yerinə köçməsi pulu və birdəfəlik kompensasiya dövlət büdcəsinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada ödənilir.

23.7. Penitensiar və tibb xidmətlərinin işçilərinə və icra məmurlarına Azərbaycan Respublikası ərazisində ictimai nəqliyyatın bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) istifadə edilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş miqdarda kompensasiya ödənilir. [26]

23.8. Yaş həddinə çatanadək ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrdə azı *35 il qulluq stajı olan ədliyyə işçiləri (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)* "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya hüququna malikdirlər və onların qulluq keçməsinə öz xahişləri ilə xitam verilə bilər.[27]

23.9. Pensiyaya çıxması, struktur və ştat dəyişiklikləri, habelə bu Qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş hallardan başqa, səhhəti və əlil olması ilə bağlı ədliyyə orqanlarında qulluq keçməsinə xitam verilmiş ədliyyə orqanlarının işçisinə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət verilir. Pensiyaya çıxması ilə əlaqədar verilmiş müavinətdən vergi tutulmur.

23.10. Ədliyyə orqanlarında qulluq etmiş şəxslərin, ədliyyə işçilərinin və onların ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

23.11. Ədliyyə orqanlarında *35* il qulluq etmiş, həmin orqanlarda qulluğunu davam etdirən ədliyyə orqanlarının işçisinə aylıq əməkhaqqı ilə yanaşı, müvafiq qanunvericiliklə müəyyən edilmiş məbləğdə əmək pensiyası ödənilir.[28]

### M a d d ə 2 4 . **Ədliyyə orqanları işçilərinin tibbi təminatı**

24.1. Ədliyyə orqanlarının işçilərinə və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının tibb xidməti tərəfindən həyata keçirilir.

24.2. Tibb xidmətinin işçiləri xüsusi rütbəsi olan əməkdaşlara və mülki işçilərə bölünür. Xüsusi rütbəsi olan əməkdaşlar (bundan sonra - "əməkdaşlar") sıravi

heyətdən, kiçik, orta, böyük və ali rəis heyətindən ibarətdir. Bu Qanunun 36-39-cu maddələrinin müddəaları tibb xidmətinin əməkdaşlarına şamil edilir.

24.3. Tibb xidmətinin əməkdaşlarına bu Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş xüsusi rütbələr verilir.

M a d d ə 2 5 . **Ədliyyə orqanları işçilərinin maddi təminatı**

25.1. Ədliyyə orqanları işçilərinin əməkhaqqı vəzifə maaşından, xüsusi rütbələrə, qulluq illərinə, elmi dərəcəyə görə əlavələrdən və qanunvericiliklə nəzərdə tutulan digər ödənişlərdən ibarətdir.

25.2. Ədliyyə orqanları işçilərinin vəzifə maaşının məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [29]

25.3. Ədliyyə orqanlarının işçiləri üçün elmi dərəcəyə görə əlavələrin miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

25.4. Ədliyyə orqanlarının işçilərinə bu orqanlarda qulluq stajına görə Azərbaycan Respublikası daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə ödənilən haqqın məbləğlərinə və hesablanması qaydasına uyğun olaraq əlavə haqq verilir.

25.5. Ədliyyə orqanlarının əməyin ödənilməsi üçün nəzərdə tutulmuş vəsaitlər hüdudunda işçilərə qulluqda fərqləndiklərinə, xüsusi əhəmiyyətli işləri keyfiyyətlə yerinə yetirdiklərinə görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifə maaşlarının 25 faizindən çox olmamaq şərtilə əlavələr təyin edilə bilər.

25.6. Ədliyyə orqanları bütün işçilərinin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu orqanlarda müəyyən olunmuş aylıq əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla) 3 misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.

M a d d ə 2 6 . **Xüsusi geyim forması**

26.1. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanının mərkəzi aparatında, penitensiar və tibb xidmətlərində, regional *qurumlarında* qulluq keçən xüsusi rütbəsi olan ədliyyə işçiləri, habelə icra məmurları xüsusi geyim forması ilə təmin olunurlar. Xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsviri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [30]

26.2. Ədliyyə orqanları işçilərinə pulsuz qış, mövsümi və yay xüsusi geyim formalarının verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar əsasında həyata keçirilir.

26.3. Xüsusi geyim formasının daşınması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

26.4. Ədliyyə orqanları işçilərinə növbəti olaraq verilən xüsusi geyim formasının əvəzinə onun dəyəri məbləğində pul kompensasiyası verilə bilər.

26.5. Pensiya almaq hüququ ilə ədliyyə orqanlarında qulluq keçməyə xitam verilmiş şəxslər xüsusi geyim forması daşıya bilərlər.

M a d d ə 2 7 . **Xidməti silah**

27.1. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş siyahıda göstərilən ədliyyə orqanları işçilərinin ayrı-ayrı kateqoriyalarına xidməti vəzifələrini yerinə yetirərkən qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda xidməti silah saxlamaq, gəzdirmək və təyinatı üzrə tətbiq etmək hüququ verilir.

27.2. Ədliyyə orqanlarında qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda istifadə olunan xidməti silahların, habelə penitensiar müəssisələrdə istifadə olunan xüsusi vasitələrin siyahısı və normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## V I f ə s i l

## ƏDLİYYƏ ORQANLARI İŞÇİLƏRİNİN HƏVƏSLƏNDİRİLMƏSİ, ONLARIN MƏSULİYYƏTİ

### M a d d ə 2 8 . **Həvəsləndirmə tədbirləri**

28.1. Xidməti vəzifələrinin nümunəvi icrasına, uzunmüddətli qüsursuz fəaliyyətinə və digər xidmətlərinə görə ədliyyə orqanları işçisinə aşağıdakı həvəsləndirmə tədbirləri tətbiq oluna bilər:

28.1.1. təşəkkür;

28.1.2. pul mükafatı;

28.1.3. qiymətli hədiyyə ilə mükafatlandırma;

28.1.4. əvvəllər verilmiş intizam tənbehinin vaxtından əvvəl götürülməsi;

28.1.5. fəxri fərman ilə təltif edilmə;

28.1.6. növbədənkənar və ya vaxtından əvvəl xüsusi rütbə verilməsi;

28.1.7. “fəxri ədliyyə işçisi” adının verilməsi;

28.1.8. döş nişanı ilə təltif edilmə;[31]

28.1.9. digər həvəsləndirmə vasitələri ilə mükafatlandırma.

28.1-1. Ədliyyə sisteminin inkişafı sahəsində göstərdikləri səmərəli əməkdaşlığa və verdikləri töhfələrə görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələri və ölkə vətəndaşları fəxri fərman və xatirə nişanı ilə təltif edilə bilərlər.[32]

28.2. Ədliyyə orqanlarının işçiləri xüsusi xidmətlərinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının orden və medalları və fəxri adları ilə təltif olunmaq üçün təqdim oluna bilərlər.

### M a d d ə 2 9 . **Ədliyyə orqanları işçisinin həvəsləndirilməsi qaydası**

29.1. Həvəsləndirmə tədbirlərinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyətlər verdiyi vəzifəli şəxslər tərəfindən həyata keçirilir.

29.2. Həvəsləndirmə tədbiri əmrlə rəsmiləşdirilir və əmr işçinin şəxsi işinə əlavə olunur (penitensiar və tibb xidmətlərinin əməkdaşları üçün həvəsləndirmə tədbirləri

barədə qeydlər onların şəxsi işlərinin xidməti vərəqələrinə yazılır). Əmr verildikdən sonra 3 gün ərzində həmin şəxsə elan olunur.

M a d d ə 3 0 . **Ədliyyə orqanları işçisinin məsuliyyəti**

Ədliyyə orqanları işçisinin məsuliyyətə cəlb edilməsi, onun hüquqazidd hərəkətləri nəticəsində vurulmuş ziyanın ödənilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

M a d d ə 3 1 . **İntizam məsuliyyətinin növləri**

31.1. Ədliyyə orqanlarının işçisi bu Qanunun 10-cu və 11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, habelə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) onun barəsində aşağıdakı intizam tənbehlərindən biri tətbiq oluna bilər:

31.1.1. irad tutma;

31.1.2. töhmət;

31.1.3. şiddətli töhmət;

31.1.4. tutduğu vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq;

31.1.5. aşağı vəzifəyə keçirmə;

31.1.6. xüsusi rütbənin bir pillə aşağı salınması;

31.1.7. vəzifədən azad etmə (bu halda ədliyyə orqanlarının işçisi müvafiq icra hakimiyyəti orqanının əmri ilə sərəncamda ola bilər və həmin müddət ərzində şəxsin ədliyyə orqanlarından xaric edilməsinə əsaslar olmazsa, o, ədliyyə orqanlarında işə təyin edilir);

31.1.8. ədliyyə orqanlarından xaric etmə;

31.1.9. qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada xüsusi rütbədən məhrum edilməklə ədliyyə orqanlarından xaric etmə.

31.2. Ədliyyə orqanlarının işçisi intizam məsuliyyətinə cəlb edilərkən onun xidməti və şəxsi keyfiyyətləri, törədilən xətanın xarakteri, törədilməsi şəraiti və digər hallar nəzərə alınır.

31.3. Xidməti intizamı pozduğuna görə ədliyyə orqanları işçisinin xüsusi rütbəsi (ədliyyə sıravisi, tibb xidməti sıravisi, ədliyyə kiçik leytenantı, tibb xidməti kiçik leytenantı, III dərəcəli ədliyyə qulluqçusu və ali xüsusi rütbələr istisna olmaqla) bir pillə aşağı salına bilər.

31.4. Bu Qanunun 31.1-ci maddəsində göstərilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan, işçiyə şifahi və ya yazılı qaydada xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi sayılmır.

31.5. Bu Qanunun 31.1.8-ci maddəsində nəzərdə tutulmuş intizam tənbehi vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq yol verilmiş pozuntulara və ya bu Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş qulluqla bir araya sığmayan hərəkətlərə görə tətbiq edilə bilər.

31.6. Bu Qanunun 31.1.9-cu maddəsində nəzərdə tutulmuş intizam tənbehi cinayət törətdiyinə görə ədliyyə orqanının işçisi barədə məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindikdə tətbiq edilə bilər.

M a d d ə 3 2 . **Ədliyyə orqanları işçisinin intizam məsuliyyətinə cəlb edilməsi qaydası**

32.1. İntizam tənbehlərinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyətlər verdiyi vəzifəli şəxslər tərəfindən həyata keçirilir.

32.2. Ədliyyə orqanları işçisinin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq qurumun rəhbəri öz səlahiyyəti daxilində vəsatət qaldıra bilər.

32.3. Bu Qanunun 31.1-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda ədliyyə orqanının rəhbəri tərəfindən araşdırma aparılır, işçidən yazılı izahat alınır. Zərurət olduqda ədliyyə orqanının rəhbəri xidməti yoxlama təyin edir. Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İşçinin izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiq edilməsinə mane olmur.

32.4. Ədliyyə orqanlarının işçisinə intizam tənbehi bu Qanunun 31.1-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən iki ay keçənədək verilə bilər. Ədliyyə orqanları işçisinin məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

32.5. Bu Qanunun 31.1-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsas yaradan eyni bir əmələ görə yalnız bir intizam tənbehi verilə bilər.

32.6. Bu Qanunun 31.1-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsas yaradan əməl törədildiyi gündən bir il keçdikdən sonra ədliyyə orqanları işçisinə intizam tənbehi verilə bilməz.

32.7. İrad tutma, töhmət və şiddətli töhmət intizam tənbehi verildiyi gündən bir il müddətində qüvvədə olur.

32.8. Bu Qanunun 28.1-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda ədliyyə orqanlarının işçisinə verilmiş intizam tənbehi vaxtından əvvəl götürülə bilər.

32.9. İntizam tənbehinin verilməsi və vaxtından əvvəl götürülməsi əmrlə rəsmiləşdirilir və ədliyyə orqanları işçisinin şəxsi işinə əlavə olunur (penitensiar və tibb xidmətlərinin əməkdaşları üçün intizam tənbehinin tətbiqi barədə qeydlər onların şəxsi işlərinin xidməti vərəqələrinə yazılır). Verilmiş əmr üç gün ərzində işçiyə elan olunur və əmrin surəti imza etdirilməklə ona təqdim edilir.

32.10. Ədliyyə orqanlarının işçisi intizam tənbehi tətbiq edilməsi barədə əmrdən qanunvericilikdə müəyyən edilmiş qaydada yuxarı orqanın rəhbərinə və ya məhkəməyə şikayət verə bilər.

32.11. Ədliyyə orqanları işçisinin intizam tənbehi tətbiq edilməsi barədə əmrdən verdiyi şikayətlərə yuxarı orqanın rəhbəri tərəfindən bir ay müddətində baxılmalı və nəticəsi barədə müvafiq qərar qəbul edilməlidir.

V I I f ə s i l

## PENİTENSİAR XİDMƏTDƏ QULLUQ KEÇMƏNİN XÜSUSİYYƏTLƏRİ

M a d d ə 3 3 . **Penitensiar xidmətin işçiləri**

33.1. Penitensiar xidmətin işçiləri xüsusi rütbəsi olan əməkdaşlara, mülki işçilərə və hərbi qulluqçulara bölünür. Xüsusi rütbəsi olan əməkdaşlar (bundan sonra - "əməkdaşlar") sıravi heyətdən, kiçik, orta, böyük və ali rəis heyətindən ibarətdir. Mülki işçilər dövlət qulluqçularından və dövlət qulluqçusu olmayan işçilərdən ibarətdirlər.

33.2. Penitensiar xidmətin əməkdaşları və mülki işçiləri ədliyyə orqanlarının işçiləridir.

33.3. Penitensiar müəssisələrdə mülki işçilərin tərkibinə imkan daxilində psixiatrlar, psixoloqlar, sosial işçilər, müəllimlər və *peşə* təhsilli mütəxəssislər, bədən tərbiyəsi və idman üzrə təlimçilər daxil edilirlər.[33]

33.4. Hərbi qulluqçular penitensiar müəssisələrin mühafizəsi və penitensiar müəssisələrdə saxlanılan şəxslərin müşayiəti üçün təşkil edilmiş penitensiar xidmətin xüsusi bölmələrində xidmət keçirlər.

M a d d ə 3 4 . **Penitensiar xidmətə qulluğa qəbul**

34.1. Penitensiar xidmətdə qulluğa könüllülük əsasında, şəxsi keyfiyyətlərinə, fiziki və peşə hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə bu xidmətdə qulluğa yararlı olan, habelə hərbi xidmət keçmiş və hərbi mükəlləfiyyətli (qadınlar istisna olmaqla), yaşı 20-dən aşağı və bir qayda olaraq, 30-dan yuxarı olmayan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

34.2. Əvvəllər penitensiar xidmətdə qulluq keçmələrinə xitam verilmiş və sonradan qulluğa qəbul edilən şəxslərin, elmi dərəcəsi olan və ya yüksək təcrübəli mütəxəssislərin yaş məhdudiyyətləri bu Qanunun 38.1-ci maddəsi ilə müəyyən edilir.

34.3. Bu Qanunun 34.1-ci və 34.2-ci maddələrində nəzərdə tutulmuş yaş məhdudiyyətləri digər ədliyyə orqanlarından penitensiar xidmətə keçirilmiş şəxslərə şamil edilmir.

34.4. Penitensiar xidmətin sıravi və kiçik rəis heyəti vəzifələrində qulluğa ən azı tam orta və orta ixtisas təhsilli, orta və böyük rəis heyəti vəzifələrinə isə yalnız ali təhsilli şəxslər qəbul edilirlər. [34]

34.5. Penitensiar xidmətdə qulluğa qəbul edilən şəxsin fiziki hazırlığı və sağlamlıq vəziyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada yoxlanılır.

34.6. Penitensiar xidmətə qulluğa qəbul edilmiş şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada ədliyyə orqanlarının təhsil müəssisələrində ilkin hazırlıq keçməlidirlər.

M a d d ə 3 5 . **Penitensiar xidmətdə qulluq keçmə**

35.1. Penitensiar xidmətin əməkdaşlarının və mülki işçilərinin qulluq keçmə qaydası və şərtləri bu Qanunla, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ hüquqi aktlarla tənzimlənir.

35.2. Penitensiar xidmətdə hərbi qulluqçuların, o cümlədən müddətli həqiqi hərbi xidmət keçənlərin xidmət keçmə qaydaları "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi" və digər normativ hüquqi aktlarla tənzimlənir.

35.3. Penitensiar xidmətin əməkdaşlarının qulluq üzrə bilavasitə tabe olduqları rəis tabelikdə olan işçi üçün vəzifəcə ən yaxın rəhbər işçidir.

35.4. Qulluq üzrə tabeliyi olmayan penitensiar xidmətin əməkdaşları xidmətdə böyük və kiçik vəzifəli ola bilərlər. Bərabər vəzifələrdə böyüklük xüsusi rütbələrlə, bərabər xüsusi rütbələrdə olduqda isə vəzifəyə görə müəyyən edilir.

35.5. Vəzifəni müvəqqəti icra edən şəxs vəzifə üzrə nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirir.

35.6. Penitensiar xidmətin əməkdaşına bu xidmətdə digər vəzifənin icrası həvalə edilə bilər. Bu halda onun vəzifə maaşına qanunvericilik ilə nəzərdə tutulmuş qaydada əlavə müəyyən edilib ödənilməlidir.

35.7. Penitensiar xidmətin ixtisaslı kadrlarla komplektləşdirilməsi və təliminin təşkili məqsədilə əməkdaşların peşə hazırlığı həyata keçirilir. Peşə hazırlığına ilkin hazırlıqvə əlavə təhsil daxildir. Penitensiar xidmətin əməkdaşlarının xüsusi, döyüş və fiziki hazırlığı mütəmadi yoxlanılır. [35]

35.8. Penitensiar xidmətin əməkdaşı qohumunun məhkum olunması barədə məlumatı ona məlum olduğu vaxt qulluq etdiyi orqanın rəhbərliyinə verməlidir.

35.9. Penitensiar xidmətin əməkdaşları qulluq etdikləri müddətdə hərbi çağırışdan və hərbi toplanışdan azad olunurlar.

35.10. Penitensiar xidmətə qəbul edilmiş əməkdaşlar hərbi *qeydiyyatdan* çıxarılır və müvafiq icra hakimiyyəti orqanında xüsusi qeydiyyata götürülürlər. [36]

M a d d ə 3 6 . **Penitensiar xidmətdə qulluğun şərtləri**

36.1. Penitensiar xidmətin əməkdaşlarına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tam iş vaxtı şamil edilir. Növbəli işdə - gündüz, axşam və gecə növbələri üçün eyni müddətli iş vaxtı müəyyən edilir.

36.2. Xidməti şərait nəzərə alınmaqla penitensiar xidmətin əməkdaşları üçün müddəti qısaldılmış iş günü müəyyən edilə bilər.

36.3. Hərbi və ya fövqəladə vəziyyət elan edilmiş ərazilərdə penitensiar xidmətin əməkdaşlarının qulluq keçmələrinin xüsusiyyətləri qanunvericiliklə müəyyən edilir.

36.4. Penitensiar xidmətin əməkdaşları üçün əməkhaqqı və digər təminatlar saxlanılmaqla aşağıdakı məzuniyyət növləri müəyyən edilir:

36.4.1. hər il verilən əsas məzuniyyət;

36.4.2. xəstəliyə görə;

36.4.3. qısamüddətli.

36.5. Penitensiar xidmətin əməkdaşlarının Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə nəzərdə tutulan digər məzuniyyətlərdən istifadə etmək hüququ vardır.

36.6. Əsas məzuniyyət penitensiar xidmətin əməkdaşlarına 30 təqvim günü müddətində verilir. Bu məzuniyyət təqvim ili ərzində müvafiq cədvələ uyğun olaraq verilir.

36.7. Penitensiar xidmətə qulluğa qəbul edilən il əsas məzuniyyətin müddəti qulluğa qəbul olunduğu gündən başlayaraq qulluğun hər tam ayına məzuniyyətin 12 hissəsindən biri düşmək hesabı ilə verilir. Bu zaman 15 təqvim günündən az müddətə olan məzuniyyət penitensiar xidmətin əməkdaşlarına onların arzusu ilə gələn ilin növbəti illik məzuniyyəti ilə eyni vaxtda verilə bilər.

36.8. Xəstəliyə görə məzuniyyət penitensiar xidmətin əməkdaşlarına müvafiq icra hakimiyyəti orqanının tibbi-həkim komissiyasının rəyi əsasında verilir.

Xəstəliyə görə məzuniyyət tibb müəssisələrində stasionar müalicədə olmayan əməkdaşlara verilir. Həmin məzuniyyətin müddəti dörd aydan artıq olmamaqla xəstəlikdən asılı olaraq müəyyən edilir. Xəstəliyə və müalicəyə görə fasiləsiz məzuniyyət üçün müəyyən edilən müddət qurtardıqdan sonra penitensiar xidmətin əməkdaşı qulluğa yararlılığının yoxlanılması məqsədilə tibbi-həkim komissiyasının müayinəsindən keçməlidir. Xəstəliyə görə məzuniyyət əsas məzuniyyətə hesablanmır.

36.9. Təxirəsalınmaz sosial-məişət məsələlərinin həlli və qohumluq borclarının yerinə yetirilməsi üçün, həmçinin digər üzrlü səbəblərə görə penitensiar xidmətin əməkdaşlarına 14 günə qədər qısamüddətli məzuniyyət verilə bilər. Qısamüddətli məzuniyyət əsas məzuniyyətin müddətinə daxil edilmir.

36.10. Penitensiar xidmətin əməkdaşları qulluqdan xaric edildikdə onlara qısamüddətli və xəstəliyə görə məzuniyyət verilmir.

36.11. Məzuniyyəti keçirmə yerinə (ölkə daxilində) getmə və qayıtma vaxtı penitensiar xidmətin əməkdaşlarına verilən əsas və xəstəliyə görə məzuniyyətlərin müddətinə əlavə edilir və ödənilir.

36.12. Penitensiar xidmətin əməkdaşlarına məzuniyyəti keçirmə yerinə (ölkə daxilində) getmə və geriyə qayıtma üçün yol haqqı əsas və ya xəstəliyə görə məzuniyyətlər verilərkən (ildə bir dəfə) ödənilir.

36.13. Penitensiar xidmətin əməkdaşlarının ailə üzvlərindən birinə əsas məzuniyyəti keçirmə yerinə (ölkə daxilində) getmək və geri qayıtmaq üçün iki ildə bir dəfə yol haqqı ödənilir.

### M a d d ə 3 7 . **Penitensiar xidmətin əməkdaşlarına verilən təminatlar**

37.1. Penitensiar xidmətin əməkdaşlarının təminat xərclərinə tutduğu vəzifəyə görə vəzifə maaşı, xüsusi rütbəyə və qulluq illərinə görə haqq, məharət dərəcəsinə görə verilən əlavə, ərzaq payı və ya ərzaq payı əvəzinə verilən pul kompensasiyası, digər müavinət və ödənişlər daxildir.

37.2. Penitensiar xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşların məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən, pul təminatının digər növlərinin ödənilməsi qaydaları isə qanunvericiliklə müəyyən edilir.[37]

37.3. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə verilən ödənişlər aşağıdakılar nəzərə alınmaqla ödənilir:

37.3.1. xidməti vəzifələrinin icrası zamanı alınmış xəsarətlə (yaralanma, travma, kontuziya), yaxud şikəstliklə əlaqədar penitensiar xidmətin əməkdaşlarının müalicədə olma müddətləri məhdudlaşdırılmır; [38]

37.3.2. xidməti vəzifələrinin icrası zamanı vərəm xəstəliyinə tutulmuş əməkdaşların müalicədə olma müddəti on iki ayla məhdudlaşdırılır.

37.4. Penitensiar xidmət işçilərinin vəzifə maaşları penitensiar müəssisələrin növündən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş işlərin (vəzifələrin) xüsusiyyətindən və ağırlığından asılı olaraq artırılır.

37.5. Penitensiar xidmətin əməkdaşları dövlət büdcəsi vəsaiti hesabına imtiyazlı ödəmə şərtilə ölkə daxilində sanatoriya-kurort müəssisələrinə yollayış ala bilərlər.

37.6. Xidməti vəzifələrini icra edərkən həlak olan (vəfat edən) əməkdaşların dəfni dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Əməkdaşların dəfni zamanı şərəfinə göstərilən ehtiram qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [39]

37.7. Müvafiq icra hakimiyyəti orqanları mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan və yeni xidmət yerinə göndərilən penitensiar xidmətin əməkdaşlarının mənzil ehtiyacının növbədənkənar qaydada ödənilməsi üçün zəruri tədbirlər görməlidirlər. Xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan penitensiar xidmətin əməkdaşlarına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və miqdarda kompensasiya ödənilir.

37.8. Penitensiar xidmətin əməkdaşlarına qanunvericiliklə nəzərdə tutulmuş digər təminatlar da verilir.

M a d d ə 3 8 . **Penitensiar xidmətdə qulluq keçmənin yaş həddi**

38.1. Penitensiar xidmətin əməkdaşının qulluqda olmasının yaş həddi aşağıdakı kimi müəyyən edilir:

38.1.1. sıravi və kiçik rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara - 50 yaş (bu xüsusi rütbələrdə olan əməkdaşlar göstərilən yaş həddinə çatdıqda qulluq illərinə görə pensiya hüququ əldə etmirlərsə, onlar ədliyyə orqanlarında qulluğunu davam etdirirlər);

38.1.2. orta və böyük rəis heyəti vəzifələri üçün müəyyən edilmiş xüsusi rütbələrdə olan əməkdaşlara - 55 yaş;

38.1.3. ədliyyə general-mayoru və ədliyyə general-leytenantı xüsusi rütbələrdə olan əməkdaşlara - 60 yaş, ədliyyə general-polkovniki xüsusi rütbədə olan əməkdaşlara - 65 yaş. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin olunan şəxslər üçün yaş həddi müəyyən edilmir.

38.2. Yaş həddinə çatmış penitensiar xidmətin əməkdaşının qulluqda olma müddəti müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən 5 ildən çox olmamaq şərtilə uzadıla bilər. Penitensiar xidmətdə qulluqda olma müddəti hər dəfə bir ildən çox olmayaraq uzadılır.

M a d d ə 3 9 . **Penitensiar xidmətin işçilərinin pensiya təminatı**

39.1. Penitensiar xidmətdə qulluq etmiş əməkdaşların və onların ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. Penitensiar xidmətin əməkdaşlarının və onların ailə üzvlərinin pensiya təminatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. [40]

39.2. Penitensiar xidmətin əməkdaşlarına pensiya təyin edildikdə, penitensiar müəssisələrdə mülki işçi qismində işlədikləri müddət qulluq illərinə hesablanır.

39.3. Bilavasitə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində işləyən penitensiar xidmətin əməkdaşlarına pensiya təyin edilərkən işlədikləri illərin hesablanması üç iş günü dörd iş günü kimi, yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş müalicə müəssisələrində və cəzaçəkmə müəssisələrinin yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş şöbələrində işləyənlərə isə iki iş günü üç iş günü kimi hesablanır.

39.4. Penitensiar müəssisələrdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş işlərin və peşələrin siyahısı üzrə məhkumlarla və həbsdə olan şəxslərlə işləyən mülki işçilərə pensiya aşağıdakı kimi təyin edilir:

39.4.1. kişilərə - *60* yaşına çatdıqda və ümumi əmək stajı *30* ildən az olmayaraq, bundan - 15 təqvim ilindən az olmayaraq məhkumlarla və həbsdə olan şəxslərlə işləyən mülki işçilərə;[41]

39.4.2. qadınlara - *55* yaşına çatdıqda və ümumi əmək stajı *25* ildən az olmayaraq, bundan - *12 il 6 aydan* az olmayaraq məhkumlarla və həbsdə olan şəxslərlə işləyən mülki işçilərə.[42]

## V I I I f ə s i l

## ƏDLİYYƏ ORQANLARINDA QULLUQ KEÇMƏYƏ XİTAM VERİLMƏSİ VƏ ƏDLİYYƏ ORQANLARINA BƏRPA EDİLMƏSİ

M a d d ə 4 0 . **Ədliyyə orqanlarında qulluq keçməyə xitam verilmə əsasları**

40.1. Aşağıdakı əsaslar olduqda ədliyyə orqanları işçisinin qulluq keçməsinə xitam verilir:

40.1.1. öz arzusu ilə işdən çıxma barədə yazılı ərizə verdikdə;

40.1.2. attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun olmadıqda;

40.1.3. qanunvericilik və yerli özünüidarəetmə orqanlarına seçildikdə, hakim təyin edildikdə;

40.1.4. təşkilati-ştat tədbirlərinin keçirilməsi ilə əlaqədar;

40.1.5. uzunmüddətli (dörd aydan artıq) xəstəliklə əlaqədar vəzifəsinin yerinə yetirilməsinin qeyri-mümkünlüyü barədə tibbi-həkim komissiyasının rəyi olduqda;

40.1.6. bu Qanunun 15.4-cü maddəsində nəzərdə tutulmuş halda;

40.1.7. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edildikdə;

40.1.8. bu Qanunda ədliyyə orqanlarının vəzifələrə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar olduqda;

40.1.9. bu Qanunun 4.6-cı maddəsində göstərilən hal aşkar edildikdə;[43]

40.1.10. qulluqda olmanın son yaş həddinə çatdıqda;

40.1.11. ədliyyə orqanlarından xaric edildikdə;

40.1.12. qanunla nəzərdə tutulmuş digər hallarda.

40.2. Bu Qanunun 40.1.2-ci, 40.1.4-cü və 40.1.5-ci maddələrində nəzərdə tutulmuş əsaslara görə işçinin ədliyyə orqanlarında digər vəzifəyə keçirilməsi qeyri-mümkün olduqda və ya işçi digər vəzifəyə keçirilmədən imtina etdikdə qulluq keçməyə xitam verilir.

40.3. Bu Qanunun 40.1.2-40.1.11-ci maddələrində göstərilən əsaslara görə ədliyyə orqanları işçilərinin qulluq keçməsinə xitam verilməsi ədliyyə orqanı rəhbərinin təşəbbüsü ilə həyata keçirilir.

40.4. Ədliyyə orqanlarının işçisi əmək qabiliyyətini müvəqqəti itirdiyi dövrdə (bu Qanunun 40.1.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla), habelə məzuniyyətdə və ezamiyyətdə olduğu vaxt ərzində ədliyyə orqanının rəhbərinin təşəbbüsü ilə onun qulluq keçməsinə xitam verilə bilməz.

M a d d ə 4 1 . **Ədliyyə orqanları işçisinin xüsusi rütbəsinin, vəzifəyə və ədliyyə orqanlarına bərpa edilmə əsasları**

41.0. Ədliyyə orqanları işçisinin xüsusi rütbəsinin, vəzifəyə və ədliyyə orqanlarına bərpa edilməsinin əsasları aşağıdakılardır:

41.0.1. xidməti yoxlamanın nəticəsinə dair müsbət rəy;

41.0.2. məhkəmənin qərarı.

M a d d ə 4 2 . **Ədliyyə orqanları işçisinin xüsusi rütbəsinin, vəzifəyə və ədliyyə orqanlarına bərpa edilmə məsələlərinə baxılması**

42.1. Ədliyyə orqanları işçisinin xüsusi rütbəsinin, vəzifəyə və ədliyyə orqanlarına bərpa edilməsi ilə əlaqədar məsələlərə müvafiq icra hakimiyyəti orqanı, qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə məhkəmə tərəfindən baxılır.

42.2. Ədliyyə orqanlarına bərpa olunmuş şəxs əvvəllər tutduğu vəzifəyə, yaxud bərabər vəzifəyə təyin edilir.

M a d d ə 4 3 . **Ədliyyə orqanları işçisinin siyahıdan çıxarılması**

Vəfat etdikdə, habelə məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya xəbərsiz itkin düşmüş hesab edildikdə ədliyyə orqanları işçisinin adı ədliyyə orqanları işçilərinin siyahısından çıxarılır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2006-cı il
№ 119-IIIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 22 dekabr 2006-cı il tarixli 211-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 1, maddə 1**)
2. 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 756**)
3. 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**)
4. 23 oktyabr 2007-ci il tarixli 465-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1081**)
5. 1 fevral 2008-ci il tarixli 538-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 155**)
6. 24 iyun 2008-ci il tarixli 654-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 481**)
7. 2 iyun 2008-ci il tarixli 616-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 694)**
8. 4 iyul 2008-ci il tarixli 669-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 710)**
9. 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)**
10. 27 oktyabr 2009-cu il tarixli **901-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 25 noyabr 2009-cu il, № 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 11, maddə 878)**
11. 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 171)**
12. 5 mart 2010-cu il tarixli **969-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 16 aprel 2010-cu il, № 80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 273)**
13. 8 oktyabr 2010-cu il tarixli **1091-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 noyabr 2010-cu il, № 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 11, maddə 944)**
14. 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 18 fevral 2011-ci il, № 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)**
15. 30 dekabr 2010-cu il tarixli **43-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 17 fevral 2011-ci il, № 37, “Azərbaycan” qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 72)**
16. 1 oktyabr 2012-ci il tarixli **428-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 16 noyabr 2012-ci il, № 255, “Azərbaycan” qəzeti, 18 noyabr 2012-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 11, maddə 1040)**
17. 30 sentyabr 2015-ci il tarixli **1323-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 11 noyabr 2015-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2015-ci il, № 10, maddə 1089)**

18. 17 may 2016-cı il tarixli **240-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 iyul 2016-cı il, № 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 984)**
19. 25 aprel 2017-ci il tarixli **629-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2017-ci il, № 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 729)**
20. 31 may 2017-ci il tarixli **685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1252)**
21. 6 mart 2018-ci il tarixli **1031-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 29 mart 2018-ci il, № 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 398)**
22. 30 oktyabr 2018-ci il tarixli **1317-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, № 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2473)**
23. 29 mart 2019-cu il tarixli **1552-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 may 2019-cu il, № 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 797)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 dekabr 2010-cu il tarixli **43-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 17 fevral 2011-ci il, № 37, "Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 72)** ilə 2.1-ci maddədə "**Məhkəmə qərarlarının icrası haqqında", "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında**" sözləri "**İcra haqqında", "İcra məmurları haqqında**" sözləri ilə əvəz edilmişdir.

[2] 23 oktyabr 2007-ci il tarixli 465-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1081**) ilə 2.2-ci maddəsində **"həyata keçirilməsinə"** sözlərindən sonra **"və dövlət qulluğunun digər prinsiplərinə"** sözləri əlavə edilmişdir.

1 fevral 2008-ci il tarixli 538-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 155**) ilə 2.2-ci maddədə "**həyata keçirilməsinə**" sözlərindən sonra "**, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə**" sözləri əlavə edilmişdir.

28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 2.2-ci maddədə "**girmək**" sözü "**qəbul edilmək**" sözləri ilə əvəz edilmişdir.

30 oktyabr 2018-ci il tarixli **1317-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 dekabr 2018-ci il, № 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2473)** ilə 2.2-ci maddəyə "**qulluğa qəbul**" sözlərindən sonra "**və qulluq keçmə**" sözləri və "**müddəaları**" sözündən sonra "**, həmçinin həmin Qanunun 15-1-ci maddəsi**" sözləri əlavə edilmişdir.

[3] 24 iyun 2008-ci il tarixli 654-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 481**) ilə 3.3-cü maddə çıxarılmışdır.

[4] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 4.1-ci maddədə "**milliyyətindən,**" sözündən sonra "**dinindən,**" sözü əlavə edilsin, "**dinə münasibətindən,**" sözləri çıxarılsın və "**malik olan**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən**" sözləri əlavə edilmişdir.

[5] 22 dekabr 2006-cı il tarixli 211-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 1, maddə 1**) ilə yeni məzmunda 4.3-cü maddə əlavə edilmişdir, 4.3-4.9-cu maddələr müvafiq olaraq 4.4-4.10-cu maddələr hesab edilmişdir.

[6] 27 oktyabr 2009-cu il tarixli **901-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 noyabr 2009-cu il, № 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 11, maddə 878)** ilə 4.7-ci maddəyə ikinci abzas əlavə edilmişdir.

[7] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 6.1-ci maddənin birinci cümləsində "**altı aylıq**" sözləri "**bir illik**" sözləri ilə, ikinci cümləsində "**bir illik**" sözləri "**altı aylıq**" sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli **685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1252)** ilə 6.1-ci maddənin birinci cümləsində "**bir illik**" sözləri "**altı aylıq**" sözləri ilə, ikinci cümləsində "**altı**" sözü "**üç**" sözü ilə əvəz edilmişdir.

[8] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 6.5-ci maddədə "**elmlər namizədi**" sözləri "**fəlsəfə doktoru**" sözləri ilə əvəz edilmişdir.

[9] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 9.0.4-cü maddədə "**ixtisasının artması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.

[10] 2 iyun 2008-ci il tarixli 616-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 694)** ilə 10.0.11-ci maddəsində "**qulluq etikası normalarına**" sözləri "**etik davranış**" sözləri ilə əvəz edilmişdir.

[11] 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 756**) ilə 12.2-ci maddəsinin birinci cümləsində "bayram və iş günü hesab edilməyən günlərində" sözləri "iş günü hesab edilməyən bayram və digər günlərdə" sözləri ilə əvəz edilmişdir.

1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 171)** ilə 12.2-ci maddəsinin birinci cümləsində "**iş günü hesab edilməyən bayram və digər günlərdə**" sözləri "**səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günündə**" sözləri ilə əvəz edilmişdir.

[12] 5 mart 2010-cu il tarixli **969-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 aprel 2010-cu il, № 80, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 3, maddə 273)** ilə 14.5-ci maddəsi çıxarılmışdır.

[13] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 16-cı maddənin adında "**ixtisaslarının artırılması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.

[14] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 16.1-ci maddədə və 16.2-ci maddənin ikinci cümləsində ismin müvafiq hallarında "**tədris**" sözü ismin müvafiq hallarında "**təhsil**" sözü ilə əvəz edilmişdir.

[15] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 16.3-cü maddə əlavə edilmişdir.

21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 16.3-cü maddədə "**təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi vaxtı**" sözləri "**əlavə təhsil aldığı müddət**" sözləri ilə əvəz edilmişdir.

[16] 1 fevral 2008-ci il tarixli 538-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 155**) ilə 17-ci maddənin adında "**attestasiyası**" sözündən sonra "**və fəaliyyətinin qiymətləndirilməsi**" sözləri əlavə edilmişdir.

[17] 1 fevral 2008-ci il tarixli 538-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 155**) ilə 17.1-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

[18] 31 may 2017-ci il tarixli **685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1252)** ilə 17.1-1-ci maddə əlavə edilmişdir.

[19] 31 may 2017-ci il tarixli **685-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №7 , maddə 1252)** ilə 17.2-ci maddədə **"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı tərəfindən**" sözləri ilə əvəz edilmişdir.

[20] 1 oktyabr 2012-ci il tarixli **428-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 16 noyabr 2012-ci il, № 255, "Azərbaycan" qəzeti, 18 noyabr 2012-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 11, maddə 1040)** ilə 18.5-ci maddənin birinci cümləsində "**və ya hərbi orqanlarına**" sözləri "**, o cümlədən fövqəladə hallar orqanlarına və ya hərbi orqanlara**" sözləri ilə əvəz edilmişdir.

[21] 17 may 2016-cı il tarixli **240-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 5 iyul 2016-cı il, № 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 984)** ilə 19.3-cü maddədə "**Verilmiş şikayət**" sözləri "**Bu Qanunun 19.4-cü maddəsinə əsasən intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, verilmiş şikayət**" sözləri ilə əvəz edilmişdir.

[22] 17 may 2016-cı il tarixli **240-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika"**

**qəzeti, 5 iyul 2016-cı il, № 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 984)** ilə yeni məzmunda 19.4-cü maddə əlavə edilmişdir.

[23] 27 oktyabr 2009-cu il tarixli **901-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 noyabr 2009-cu il, № 246, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 11, maddə 878)** ilə 21.2-ci maddənin ikinci cümləsində "**uyğun**" sözündən sonra "**olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində**" sözləri əlavə edilmişdir.

21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 21.2-ci maddənin üçüncü cümləsində "**orta və ya orta ixtisas**" sözləri "tam orta və ya **orta ixtisas**" sözləri ilə əvəz edilmişdir.

[24] 1 oktyabr 2012-ci il tarixli **428-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 16 noyabr 2012-ci il, № 255, "Azərbaycan" qəzeti, 18 noyabr 2012-ci il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 11, maddə 1040)** ilə 21.13-cü maddədə "**hüquq mühafizə,**" sözlərindən sonra "**o cümlədən fövqəladə hallar,**" sözləri əlavə edilmişdir.

[25] 4 iyul 2008-ci il tarixli 669-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 710)** ilə 23.5-ci maddədə **"xəsarət"** sözündən sonra mötərizədə **"yaralanma, travma, kontuziya"** sözləri əlavə edilmişdir.

[26] 30 dekabr 2010-cu il tarixli **43-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 17 fevral 2011-ci il, № 37, "Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 72)** ilə 23.7-ci maddədə "**məhkəmə icraçılarına**" sözləri "**icra məmurlarına**" sözləri ilə əvəz edilmişdir.

[27] 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**) ilə 23.8-ci maddədə **"xidmət illərinə görə əməkhaqqının 80 faizi məbləğində"** sözləri **"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq"** sözləri ilə əvəz edilmişdir.

6 mart 2018-ci il tarixli **1031-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 mart 2018-ci il, № 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 398)** ilə 23.8-ci maddədə "**25 il qulluq etmiş işçilər**" sözləri "**35 il qulluq stajı olan ədliyyə işçiləri (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)**" sözləri ilə əvəz edilmişdir.

[28] 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**) ilə 23.10-23.13-cü maddələr çıxarılmışdır, Qanuna yeni məzmunda 23.10-cu və 23.11-ci maddələr əlavə edilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~23.10. Ədliyyə orqanlarında azı 5 il qulluq etmiş şəxs pensiyaya çıxdıqda və ya əlil olduqda xidmət illərindən asılı olaraq ona aşağıdakı miqdarda pensiya təyin edilir:~~

~~23.10.1. ədliyyə orqanlarında azı 5 il qulluq stajı olan şəxsə onun əməkhaqqının 45 faizi miqdarında;~~

~~23.10.2. ədliyyə orqanlarında 5 ildən 10 ilə qədər qulluq stajı olan şəxsə əməkhaqqının 45 faizi miqdarında, 5 ildən yuxarı qulluq stajının hər ili üçün əməkhaqqının 2 faizi miqdarında əlavə olunmaqla;~~

~~23.10.3. ədliyyə orqanlarında 10 ildən 15 ilə qədər qulluq stajı olan şəxsə əməkhaqqının 55 faizi miqdarında, 10 ildən yuxarı qulluq stajının hər ili üçün əməkhaqqının 5 faizi miqdarında əlavə olunmaqla, lakin əməkhaqqının 80 faizi miqdarından çox olmamaqla.~~

~~23.11. Pensiya almaq üçün müraciət edənin arzusuna əsasən əməkhaqqı müraciət etdiyi gündən əvvəlki 24 ayı və ya ardıcıl gələn istənilən 60 ayı ərzində aldığı əməkhaqqından, əməkhaqqındakı sonradan artımlar da nəzərə alınmaqla hesablanır.~~

~~23.12. Ədliyyə orqanlarında 25 il qulluq etmiş, həmin orqanlarda qulluğunu davam etdirən və pensiya təminatı hüququndan istifadə etməyən ədliyyə orqanlarının işçisinə aylıq əməkhaqqı ilə yanaşı ala biləcəyi pensiya məbləğinin 50 faizi ödənilir.~~

~~23.13. Ədliyyə işçisi, yaxud pensiyaçı öldükdən sonra onun dul arvadına (ərinə), anasına (atasına), ölənin himayəsində olmuş və 22 yaşına çatmamış işləməyən qızına (oğluna) vəfat etmiş ədliyyə işçisinin qulluq stajına görə almalı olduğu pensiyanın 80 faizi miqdarında, vəfat etmiş pensiyaçının pensiyasının 80 faizi miqdarında pensiya təyin edilir.~~

6 mart 2018-ci il tarixli **1031-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 mart 2018-ci il, № 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 398)** ilə 23.11-ci maddədə "**25**" rəqəmləri "**35**" rəqəmləri ilə əvəz edilmişdir.

[29] 24 iyun 2008-ci il tarixli 654-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 481**) ilə 25.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Ədliyyə orqanları işçilərinin vəzifə maaşı dövlət qulluqçuları üçün müəyyən edilmiş məbləğdən az olmamaq şərti ilə ödənilir.~~

[30] 30 dekabr 2010-cu il tarixli **43-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 17 fevral 2011-ci il, № 37, "Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 72)** ilə 26.1-ci maddədə "**xidmətlərində**" sözündən sonra "**, regional ədliyyə şöbələrində**" sözləri əlavə edilmişdir.

30 dekabr 2010-cu il tarixli **43-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 17 fevral 2011-ci il, № 37, "Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 72)** ilə 26.1-ci maddədə "**məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları**" sözləri "**icra məmurları**" sözləri ilə əvəz edilmişdir.

25 aprel 2017-ci il tarixli **629-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 2 iyun 2017-ci il, № 117, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 729)** ilə 26.1-ci maddəsində "**ədliyyə şöbələrində**" sözləri "**qurumlarında**" sözü ilə əvəz edilmişdir.

[31] 8 oktyabr 2010-cu il tarixli **1091-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2010-cu il, № 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 11, maddə 944)** ilə 28.1.7-ci və 28.1.8-ci maddələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~28.1.7. fəxri döş nişanı ilə təltif edilmə;~~

~~28.1.8. fəxri medalla təltif edilmə;~~

[32] 8 oktyabr 2010-cu il tarixli **1091-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2010-cu il, № 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 11, maddə 944)** ilə 28.1-1-ci maddə əlavə edilmişdir.

[33] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 33.3-cü maddədə "texniki peşə təhsilli" sözləri "**ilk peşə-ixtisas təhsilli**" sözləri ilə əvəz edilmişdir.

29 mart 2019-cu il tarixli **1552-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 may 2019-cu il, № 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 797)** ilə 33.3-cü maddədə "**ilk peşə-ixtisas**" sözləri "**peşə**" sözü ilə əvəz edilmişdir.

[34] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 34.4-cü maddədə "**orta və orta ixtisas**" sözləri "**tam orta və orta ixtisas**" sözləri ilə əvəz edilmişdir.

[35] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 35.7-ci maddənin ikinci cümləsində "**, ixtisasartırma və yenidən hazırlıq**" sözləri "**və əlavə təhsil**" sözləri ilə əvəz edilmişdir.

[36] 30 sentyabr 2015-ci il tarixli **1323-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 11 noyabr 2015-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 10, maddə 1089)** ilə 35.10-cu maddəsində "**mükəlləfiyyət qeydiyyatından**" sözləri "**qeydiyyatdan**" sözü ilə əvəz edilmişdir.

[37] 24 iyun 2008-ci il tarixli 654-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 481**) ilə 37.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Penitensiar xidmətin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə və xüsusi rütbəyə görə maaşların məbləği və pul təminatının digər növləri Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularının vəzifə və hərbi rütbəyə görə maaşlarının məbləğinə və pul təminatının digər növlərinə bərabər tutulur.~~

[38] 4 iyul 2008-ci il tarixli 669-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 710)** ilə 37.3.1-ci maddədə **"yaralanma, kontuziya"** sözləri **"xəsarətlə (yaralanma, travma, kontuziya)"** sözləri ilə əvəz edilmişdir.

[39] 4 iyul 2008-ci il tarixli 669-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 avqust 2008-ci il, № 176, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 710)** ilə 37.6-cı maddədə **"həlak olan"** sözlərindən sonra mötərizədə **"vəfat edən"** sözləri əlavə edilmişdir.

[40] 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**) ilə 39.1-ci maddənin birinci cümləsində **"Hərbi qulluqçuların pensiya təminatı haqqında"** sözləri **"Əmək pensiyaları haqqında"** sözləri ilə, ikinci cümləsində **"pensiya təminatının təşkili"** sözləri **"pensiya təminatı"** sözləri ilə əvəz edilmişdir.

[41] 6 mart 2018-ci il tarixli **1031-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 mart 2018-ci il, № 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3,**

**maddə 398)** ilə 39.4.1-ci maddədə "**55**" rəqəmləri "**60**" rəqəmləri ilə, "**25**" rəqəmləri "**30**" rəqəmləri ilə əvəz edilmişdir.

[42] 6 mart 2018-ci il tarixli **1031-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 mart 2018-ci il, № 69, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 398)** ilə 39.4.2-ci maddədə "**50**" rəqəmləri "**55**" rəqəmləri ilə, "**20**" rəqəmləri "**25**" rəqəmləri ilə, "**10 təqvim ilindən**" sözləri "**12 il 6 aydan**" sözləri ilə əvəz edilmişdir.

[43] 28 aprel 2009-cu il tarixli **807-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 399)** ilə 40.1.9-cu maddədə "**4.5-ci**" sözü "**4.6-cı**" sözü ilə əvəz edilmişdir.